AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Qalina Yuryevna Mehdiyeva
Aydın Yunus oğlu Əliyev
Vladimir Əbdüloviç Piriverdiyev

PROQRAMLAŞDIRMA ÜZRƏ MƏSƏLƏLƏR

Ali məktəblər üçün dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirinin 30.12.03 tarixli 1008 saylı əmri ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

Bakı-2004

Elmi redaktor: BDU-nun «Hesablama riyaziyyatı» kafedrasının müdiri, f.-r.e.n., dosent V.R.İbrahimov

Rəyçilər: Texnika elmləri doktoru, professor, BDU-nun «İnformasiya texnologiyaları və proqramlaşdırma» kafedrasının müdiri Ə.Ə.Əliyev,

AMEA-nın Kibernetika institutunun bölmə müdiri, baş elmi işçi, fizika-riyaziyyat elmləri namizədi, K.Ş.Məmmədov.

Q.Y.Mehdiyeva, A.Y.Əliyev, V.Ə.Piriverdiyev. Proqramlaşdırma üzrə məsələlər. Ali məktəblər üçün dərs vəsaiti, Bakı, BDU nəşriyyatı, 2004, 106 səh.

Fizika-riyaziyyat elmləri nəmizədləri, dosentlər Q.Y.Mehdiyeva, A.Y.Əliyev və V.Ə.Piriverdiyev tərəfindən hazırlanmış dərs vəsaiti proqramlaşdırmanın əsaslarına həsr edilib və proqramlaşdırma üzrə praktik məşğələlərin keçirilməsi üçün nəzərdə tutulmuşdur. Kitabda müxtəlif mövzular üzrə çoxsaylı misal və məsələlər verilmişdir.

Kitab universitetlərin riyaziyyat ixtisaslı fakültələrinin tələbə və müəllimləri, proqramlaşdırma ilə məşğul olanlar üçün nəzərdə tutulmuşdur.

G İ R İ Ş

Dərs vəsaitində, Paskal dilində proqramlaşdırma üçün məsələ və misallar şərh olunmuşdur. Misallardan eyni zamanda digər alqoritmik dillərdə də proqram tərtib etmək üçün istifadə etmək olar. Burada proqramlaşdırma üzrə praktik məşgələlər üçün çoxlu sayda misallar verilir. Oxuculara kömək məqsəd ilə, bütün mövzular üzrə, həllin məntiqi sxemi və alqoritmi verilmiş misallar dərs vəsaitinə daxil edilmişdir. Kitabdakı məsələlər Paskal dili üzrə proqramlaşdırmanın bir çox mövzularını əhatə edir. Verilmiş misallar 20 bölmədə qruplaşdırılıbdır. Bu bölmələrdə praktikada ən çox istifadə olunan proqramlaşdırma üsulları və alqoritmləri nəzərdən keçirilmişdir.

Dərs vəsaiti universitetlərin riyaziyyat ixtisaslı fakültələrində tədris olunan «EHM və proqramlaşdırma» və «EHM-də praktikum» fənlərinin tədris proqramına uyğun yazılmışdır və müəlliflərin Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində apardıqları praktik məşğələlərin təcrübəsinə əsaslanmışdır.

M ü ə l l i f l ə r

Tapşırıq № 1. Xətti alqoritmlər.

Tapşırığın məqsədi.

1. Proqramın sadə strukturunun qavranılması.
2. Xətti alqoritmləri realizə edən proqramların hazırlanması vərdişlərinin aşılanması.
3. Dialoq rejimində proqramlarla praktik iş vərdişlərinin alınması, standart funksiyalardan istifadə qaydalarının mənimsənilməsi vərdişlərinin alınması.

Məsələnin qoyuluşu.

Məsələnin şərtində tələb olunan hesablamaları aparıb, nəticə almaq, verilənlərin daxil edilməsini və çap olunmasını təmin etmək.

Hesabat forması.

1. Məsələnin qoyuluşu.
2. Proqramın mətni və onun yerinə yetirilmə nəticələri.
3. Nəticələr.

Məsələnin yerinə yetirilməsi üçün göstərişlər.



Əvvəlcə həllin alqoritmini qurub, sonra bu alqoritm əsasında proqramı yazmaq məsləhət olunur. Misal kimi, kubun verilmiş tilinə görə həcminin və tam səthinin sahəsinin tapılması məsələsinə baxaq. Tutaq ki, kubun tili a-ya bərabərdir, onda kubun həcmi $V = a^3$, tam səthinin sahəsi isə $S = 6a^2$ düsturu ilə təyin olunar.

Bu məsələnin həllinin blok-sxemi və Paskal dilində proqramı aşağıdakı kimi verilə bilər:

```
program prim1;
Var v,a,S:real;
begin read(a);
v := a*sqr(a);S := 6*sqr(a);
writeln(v,S)
end.
```

<u>Tapşırıq variantları</u>

1) Üç müsbət tam ədəd verilib. Onların ədədi və həndəsi orta-larını tapmalı.
2) Düzbucaqlı üçbucağın katetləri verilib. Onun perimetrini, sahəsini, daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarını hesablamalı.
3) Radiusu r olan çevrə boyunca çəkilmiş düzgün n-bucaqlının perimetr və sahəsini tapmalı.
4) Radiusu r olan çevrə daxilinə çəkilmiş düzgün n-bucaqlının perimetr və sahəsini tapmalı.
5) Bərabərtərəfli üçbucağın tərəfi verilib. Onun perimetrini, sahəsini, daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarını hesablamalı.
6) Düzbucaqlı üçbucağın kateti və bu katetə söykənən iti bucağı verilib. Onun perimetrin, sahəsini, daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarını tapmalı.
7) Düzbucaqlı üçbucağın kateti və bu katetin əks tərəfinə söy-kənən iti bucaq verilib. Onun perimetrini, sahəsini, daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarını tapmalı.
8) Düzbucaqlı üçbucağın hipotenuzu və iti bucağı verilib. Onun perimetrini, sahəsini, daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarını tapmalı.
9) Çevrəninin uzunluğu verilib. Bu çevrəninin daxilinə və xaricinə çəkilmiş düzgün üçbucaqlıların sahələrini tapmalı.
10) Dairənin sahəsi verilib. Bu dairənin daxilinə və xaricinə çəkilmiş kvadratların sahələrini və perimetrlərini tapmalı.
11) Üçbucaq öz bucaqlarının qiymətləri və xaricinə çəkilmiş dairənin radiusu ilə verilib.Üçbucağın perimetrini və sahəsini tapmalı.
12) Üçbucaq tərəfi və bu tərəfə söykənən iki bucağı ilə verilib. Bu üçbucağın daxilinə və xaricinə çəkilmiş dairələrin sahə-lərini tapmalı.
13) Üçbucaq iki tərəfi və bu tərəflər arasında qalan bucaqla verilib. Üçbucağın perimetrini və sahəsini tapmalı.
14) Üçbucaq tərəflərinin uzunluqları ilə verilib. Üçbucağın hündürlüyünü, medianını, bissektrisini və onun daxilinə, xaricinə çəkilmiş çevrələrin radiuslarını tapmalı.

15) Üçbucaq öz təpə nöqtələrinin koordinatları ilə verilib. Üçbucağın perimetrini və sahəsini tapmalı.
16) Üçbucaq tərəflərinin uzunluqları ilə verilib. Üçbucağın bucaqlarını tapmalı.
17) Rombun xaricinə çəkilmiş dairənin sahəsini, radiusunu, rombun verilmiş diaqonallarına əsasən tapılmalı.
18) Dairə öz radiusu ilə verilib. Dairənin xaricinə və daxilinə çəkilmiş düzgün n–bucaqlıların $(n = 3{,}4{,}6)$ sahələrini tapmalı.
19) Verilmiş x, y, z qiymətlərinə əsasən, aşağıdakıları hesablamalı:

1) $a = \dfrac{\sqrt{|x^2 - y|} - \sqrt[4]{|y + x|}}{1 + x^2 + y^2 + z^2}; \quad b = x \operatorname{arctg}\left(\dfrac{x^2 + y^2}{1 + z^2}\right)$

2) $a = \sin(x^2 + y^2 - z) \cdot e^{-x}; \quad b = \sqrt[3]{|x^2 + \cos y| + 1}$

3) $a = \cos(x^2 + 1)\sqrt{1 + y^2}\ ; \quad b = \operatorname{tg}(xy) + y^2$

4) $a = (1 + x^2 y^2)\sin(x + y); \quad b = \sqrt{1 + \operatorname{tg}^2(x^2 + 1)}$

5) $a = \cos(xe^{-y}) + \sqrt{x^2 + e^y}; \quad b = \sin(x \cos y)$

6) $a = |y \sin x| + \sqrt{x^2 \cos(y + x)}; \quad b = \operatorname{tg}\left(\dfrac{x}{y^2 + 1}\right)$

7) $a = \left|y^2 tgx\right| + \sqrt{1 + x^2 + y^2}; \quad b = |y| \cdot |x|.$

8) $a = (y + x)\sin(x\sqrt{y}); \quad b = \cos(x^2 + y + 1).$

9) $a = \sqrt{1 + y^2} \cdot \operatorname{tg}\left(\dfrac{x^2}{1 + |y|}\right); \quad b = \sqrt{1 + y^2 e^{-xy}}$

10) $a = \sqrt{1 + x^2} \cdot \operatorname{ctg}\left(\dfrac{x \cos y}{1 + x^2}\right); \quad b = \sqrt{1 + xe^{-y^2}}$

Tapşırıq №2. Budaqlanan alqoritmlər.

Tapşırığın məqsədi

1. Sadə budaqlanan strukturlu proqramların öyrənilməsi.
2. Budaqlanan strukturlu alqoritmləri realizə edən proqramların təşkili vərdişlərinin alınması.
3. Şərt operatorlarından istifadə üçün praktik vərdişlərin alınması.

Məsələnin qoyuluşu.

Həqiqi x və y ədədləri verilib. (x,y) koordinatlı nöqtənin müstəvi üzərindəki ştrixlənmiş oblasta aid olub-olmadığını təyin etməli. Bu nöqtə verilmiş oblasta aid olarsa, $f(x,y)$ funksiyasının qiymətini, əks halda g(x,y) funksiyasının qiymətini hesablamalı.

Hesabat forması

1. Məsələnin qoyuluşu
2. Proqramın mətni və onun yerinə yetirilmə nəticələri.
3. Nəticələr.

Məsələnin yerinə yetirilməsi üçün göstərişlər.

Həllin alqoritmini qurub, bu alqoritm əsasında proqramı yazmaq məsləhət olunur. Verilmiş oblastı bərabərsizliklərin kəsişməsi kimi ifadə etmək məqsədəuyğundur. Misal kimi, aşağıdakı məsələyə baxaq. (25 saylı tapşırıq variantı):

Ştrixlənmiş oblastı aşağıdakı bərabərsizliklər sistemi ilə verək:

$$y \le 0{,}5x + 2; \quad y \le -0{,}5x + 2; \quad y \ge x + 1; \quad y \ge -x + 1$$

Onda (x, y) koordinatlı C nöqtəsi ştrixlənmiş oblasta düşərsə P məntiqi kəmiyyəti true qiymətini, əks halda isə false qiymətini alacaqdır. Məsələnin həlli üçün aşağıdakı alqoritm təklif olunur:


Başlanğıc
x, y
P = false
y ≤ 0,5x + 2
y ≤ −0,5x + 2
y ≥ x + 1
y ≥ −x + 1
P = true
A
A
P = false
f = x cos y / (sin²y + y² + 1)
g = xy
P, f
P, g
Son
+
−
+
−
+
−
+
−
+
−

Paskal dilində proqramı aşağıdakı şəkildə vermək olar:

```
program p2;
var  p:boolean; x, y, f, g: real;
begin
      read (x,y); p:= false;
      if  y<=0.5*x+2  then
      if  y<=-0.5*x+2 then
      if  y>=x+1  then
      if  y>=-x+1  then  p:=true  ;
      if  p then begin
            f:=(x*cos(y)/(sqr(sin(y))+sqr(y)+1));
            writeln (p,f); end else begin g:=x*y;
writeln (p,g) end; end.
```

Tapşırıq variantları:



1. $f(x,y) = x^2 \cos(x-y);$

$g(x,y) = y\sqrt{|x| + y^2}.$



2. $f(x,y) = y\, tg(x^2 + \sin\ y);$

$g(x,y) = e^{x+y} \cdot (1 + |y|).$



3. $f(x,y) = xy^3;$

$g(x,y) = |x + y| \sin y.$



4. $f(x,y) = x + \cos y;$

$g(x,y) = \sin(x+y)\sqrt{|y| + 1}.$



5. $f(x,y) = 2x + \sin y$;

$g(x,y) = tg(x+y)\,|\,y\,|$.



6. $f(x,y) = \cos x \cdot tg\, y$;

$g(x,y) = x\sqrt{1+y^2}$.



7. $f(x,y) = x^2 \sin y$;

$g(x,y) = y\ \cos x$.



8. $f(x,y) = x\ \ tg(|\,y\,|)$;

$g(x,y) = \sqrt{y^2 + x^2}$.



9. $f(x,y) = \sin x \cdot e^{x+y}$;

$g(x,y) = \sqrt{x^2 + y^2 + 1}\,\cos y$.



10. $f(x,y) = tg(x+y)$;

$g(x,y) = \sqrt{x}\,\cos\ y$.





11. $f(x,y) = x\,\mathrm{tg}\,y$;

$g(x,y) = x^2 \cos y$.

12. $f(x,y) = x^3\,\mathrm{tg}(x+y)$;

$g(x,y) = \sqrt{x}\;|1+y|$.





13. $f(x,y) = xy$;

$g(x,y) = x^2 - y\,|\,x\,|$.

14. $f(x,y) = |\,x\,| - |\,y\,|$;

$g(x,y) = x^2 \sin y$.





15. $f(x,y) = xy$;

$g(x,y) = x + y$.

16. $f(x,y) = x^2 + y^2$;

$g(x,y) = 1 - xy$.





17. $f(x,y)=\dfrac{1}{x^2+y^2}$;

$g(x,y)=x+y+1.$



18. $f(x,y)=\dfrac{1}{xy+4}$;

$g(x,y)=|\,xy\,|$



19. $f(x,y)=x+y$;

$g(x,y)=\sin x\cdot\sin y$.



20. $f(x,y)=x^2+y^2+1$;

$g(x,y)=|\,x\,|\cdot\{y\}$.



21. $f(x,y)=x\cos y$;

$g(x,y)=y\sin x$.



22. $f(x,y)=\dfrac{1}{(x^2+1)^2}+\dfrac{1}{(y+1)^2}$

$g(x,y)=\left|xy\right|\cdot\{x\}\cdot\{y\}$.



23. $f(x,y)=\dfrac{1}{|\,x+y\,|+1}$;

$g(x,y)=\dfrac{1}{x^2+y^2+1}$.

24. $f(x,y)=\dfrac{y}{x^2+1}$;

$g(x,y)=\dfrac{x}{y^2+1}$.





25. $f(x,y) = \dfrac{x\cos y}{\sin^2 y + y^2 + 1}$;

$g(x,y) = xy$.

26. $f(x,y) = e^x \cos y$;

$g(x,y) = e^y \sin x$.

{ } – ***bu işarə ədədin kəsr hissəsini bildirir.***

Tapşırıq №3. Sadə dövrlər

Tapşırığın məqsədi

1) Dövr operatorlarından istifadə etmək vərdişlərinin qazanılması.
2) İterasiyalı proseslərlə tanışlıq.

Məsələnin qoyuluşu.

Dövr operatorundan istifadə etməklə, tapşırıq variantında verilmiş elementlərin cəmini tapmalı və ehtiyac olduqda verilmiş iterasiya düsturu ilə ümumi həddin hesablanmasını təmin etməli.

Hesabat forması

1.Məsələnin qoyuluşu
2.Proqramın mətni
3.Konkret tapşırıq variantının həll nəticələri
4.Buraxıla biləcək səhvlərin analizi

Məsələnin yerinə yetirilməsi üçün göstərişlər.

$a_n = \dfrac{2^n}{n!}$ ümumi hədli sıranın birinci m sayda toplananlarının cəminin tapılması üçün proqram quraq. Sıranın hədlərinin cəmini taparkən, növbəti həddin qiymətini tapmağa imkan verən rekurent düsturdan istifadə edilməlidir. Bunun üçün aşağıdakı düsturdan istifadə olunur:

$$\frac{a_{n+1}}{a_n} = \frac{2^{n+1}}{(n+1)!} : \frac{2^n}{n!} = \frac{2}{n+1}.$$

Buradan

$$a_{n+1} = \frac{2a_n}{n+1}, \quad n = 0,1,2,\ldots,m-1 \quad a_0 = 1.$$

Məsələnin həlli üçün uyğun blok-sxem və Paskal dilində proqram aşağıdakı kimidir:



```
program M3;
Var a,s : real;  m,n :  integer;
begin
read(m);s := 0;a := 1;
for n := 1  to m do
begin
a := 2 * a/n;  s := s + a
end;
writeln(s)
end.
```

Tapşırıq variantları.

Aşağıdakı cəmlərin hesablanma proqramlarını yazmalı:

1. $\sum_{i=1}^{n} \frac{3^i}{i!}$; **2.** $\sum_{i=1}^{n} \frac{(-1)^i}{i!}$; **3.** $\sum_{i=1}^{n} \frac{i^n}{i!}$; **4.** $\sum_{i=1}^{n} \frac{2^i}{i!}$;

5. $\sum_{i=1}^{n} \frac{2i-1}{i^3}$; **6.** $\sum_{i=1}^{n} \frac{i^3}{i!}$; **7.** $\sum_{i=1}^{n} \frac{(-1)^i}{i!!}$; **8.** $\sum_{i=1}^{n} \frac{(-2)^i}{(2i)!!}$;

9. $\sum_{i=1}^{n} \frac{2^i}{(2i-1)!!}$; **10.** $\sum_{i=1}^{n} \frac{i!}{(2i)!}$; **11.** $\sum_{i=1}^{n} \frac{(i)!!}{i^i}$; **12.** $\sum_{i=1}^{n} \frac{(2i)!!}{i^i}$;

13. $\sum_{i=1}^{n} \frac{(2i-1)!!}{i^i}$; **14.** $\sum_{i=1}^{n} \frac{\ln(i!)}{i^3}$; **15.** $\sum_{i=2}^{n} \frac{2^i \cdot i^{\ln i}}{i!\,(\ln i)^i}$; **16.** $\sum_{i=1}^{n} \frac{i!}{2^i \cdot i^{i}}$;

17. $\sum_{i=2}^{n} \frac{i!}{\ln(i!)\, i^{\sqrt{i}}}$; **18.** $\sum_{i=1}^{n} \frac{2^i}{e^{\sqrt{i}}}$; **19.** $\sum_{i=1}^{n} \frac{i^3}{e^i}$; **20.** $\sum_{i=1}^{n} \frac{i^3}{e^{\sqrt{i}}}$;

21. $\sum_{i=1}^{n} \frac{i}{e\sqrt[3]{i}}$; **22.** $\sum_{i=1}^{n} \frac{i^2}{e^i}$; **23.** $\sum_{i=1}^{n} \frac{i^3}{e^i \ln(i+1)}$; **24.** $\sum_{i=1}^{n} \frac{\ln(i+2)}{e^{\sqrt{i}}}$;

25. $\sum_{i=1}^{n} e^i \ln(i^2 + i + 1)$.

Tapşırıq №4. Şərtlərdən asılı sadə dövrlər.

Tapşırığın məqsədi

1. Şərt qabaqcadan və şərt sonradan yoxlanılan dövr operatorlarından istifadə etmək vərdişlərinin alınması.
2. Verilmiş dəqiqliklə hesablama aparmaq vərdişlərinin alınması.

Məsələnin qoyuluşu

Şərt qabaqcadan və şərt sonradan yoxlanılan dövr operatorlarından istifadə etməklə tapşırıq variantlarında verilən sonsuz sıraların cəmini tapşırıqda verilən dəqiqiliklə tapmalı.

Hesabat forması

1.Məsələnin qoyuluşu.
2.Proqramın mətni.
3.Konkret tapşırıq variantının həll nəticələri.
4.Buraxıla biləcək səhvlərin analizi.

Tapşırığın yerinə yetirilməsi üçün göstərişlər.

$\sum_{i=1}^{\infty} \frac{i^2}{i^3+1}$ sırasının $\varepsilon = 10^{-4}$ dəqiqliyi ilə hesablanması üçün proqram quraq. Bunun üçün şərt qabaqcadan və şərt sonradan yoxlanılan dövr operatorlarından istifadə edək. Əgər şərt sonradan yoxlanılan dövr operatorundan istifadə etsək, onda qoyulmuş məslənin həlli üçün blok-sxem və proqram aşağıdakı formada olar:


Başlanğıc
eps
s = 0 ; i = 0
i = i + 1
a = i^2 / (i^3 + 1)
s = s + a
a < eps
−
+
s
Son

```
program M4;
Var i : integer; EPS, S, A : real;
Begin
read (EPS); S := 0; i = 0;
repeat
i := i + 1; A := sqr(i)/(i * sqr(i) + 1);
S := S + A;
until A < EPS;
writeln(S)
end.
```

Şərt qabaqcadan yoxlanılan dövr operatorundan istifadə etsək, onda məsələninin həlli üçün blok-sxem və proqram aşağıdakı formada olar:



```
program m41;
var i:integer; eps,s,a:real;
begin
read (eps);s:=0;i:=1;
a:=sqr(i)/(i*sqr(i)+1);
while a>=eps do
begin
s:=s+a;i:=i+1;
a:=sqr(i)/(i*sqr(i)+1)
end;
writeln(s)
end.
```

Tapşırıq variantları.

Sonsuz sıranın verilmiş eps(eps=10^{-4}) dəqiqliyi ilə hesablanması proqramlarını qurmalı:

1. $\sum_{i=1}^{\infty}\frac{i^2}{i^4+1}$; **2.** $\sum_{i=1}^{\infty}\frac{(-1)^i}{i^2+1}$; **3.** $\sum_{i=1}^{\infty}\frac{i}{i^3+1}$; **4.** $\sum_{i=1}^{\infty}\frac{2^i}{i!}$;

5. $\sum_{i=1}^{\infty}\frac{(-1)^i}{i!}$; **6.** $\sum_{i=1}^{\infty}\frac{i^2+1}{i^4+i^2+1}$; **7.** $\sum_{i=1}^{\infty}\frac{2i-1}{i^2+1}$; **8.** $\sum_{i=1}^{\infty}\frac{2^i}{i^i}$;

9. $\sum_{i=1}^{\infty}\frac{i^3}{e^i}$; **10.** $\sum_{i=1}^{\infty}\frac{\ln(i+1)}{i^2+1}$; **11.** $\sum_{i=1}^{\infty}e^{-i}\ln(i+1)$; **12.** $\sum_{i=1}^{\infty}\frac{1}{i^3}$;

13. $\sum_{i=1}^{\infty}ie^{-i}$; **14.** $\sum_{i=1}^{\infty}\frac{i}{\ln^3(i+1)}$; **15.** $\sum_{i=1}^{\infty}i^{-2}e^{-i}$; **16.** $\sum_{i=1}^{\infty}ie^{-i^2}$;

17. $\sum_{i=1}^{\infty}\frac{i}{e^{i^2}}$; **18.** $\sum_{i=1}^{\infty}\frac{i^2+2i+1}{i^4+2i^2+1}$; **19.** $\sum_{i=1}^{\infty}\frac{\sin i}{i}$; **20.** $\sum_{i=1}^{\infty}\frac{\cos i}{i^2}$;

21. $\sum_{i=1}^{\infty} \sin ie^{-i}$; **22.** $\sum_{i=1}^{\infty} \cos ie^{-i}$; **23.** $\sum_{i=1}^{\infty} \frac{i \sin i}{i^2 + 1}$; **24.** $\sum_{i=1}^{\infty} \frac{i \cos i}{i^2 + 1}$;

25. $\sum_{i=1}^{\infty} \frac{i \sin i + i^2 \cos i}{i^3 + 1}$;

Tapşırıq №5. Bir-birinin daxilində verilən dövrlər.

Tapşırığın məqsədi

1. Bir-birinin daxilində verilən dövrlərdən istifadə etmək vərdişlərinin alınması
2. Bir-birinin daxilində verilən dövrlərin qurulmasının xüsusiyyətləri.

Məsələnin qoyuluşu

Məsələ variantlarında verilmiş kəmiyyətlərin parametrli dövr operatorundan istifadə etməklə hesablanması.

Hesabat forması.

1. Məsələnin qoyuluşu
2. Proqramın mətni
3. Konkret məsələ variantının həllinin nəticələri.
4. Buraxıla biləcək səhvlərin analizi.

Məsələnin yerinə yetirilməsi üçün göstərişlər.

$\prod_{k=1}^{10} \sum_{m=1}^{20} \frac{k}{k+m}$ hesablanması üçün proqram quraq. Nəzərə almaq lazımdır ki, burada K-nın hər bir qiyməti üçün əvvəlcə cəm hesablanır, sonra isə alınan cəmlərin hasili təyin edilir. Həllin alqoritmi və proqramı aşağıdakı şəkildədir:


Başlangıç
$p=1$
$k=1,10,1$
$s=0$
$m=1,20,1$
$s=s+\frac{k}{k+m}$
$p=p*s$
p
Son

```
program ms;
var p,s: real; k,m: integer;
begin p:=1;
for k:=1 to 10 do
begin s:=0;
for m:=1 to 20 do
s:=s+k/(k+m); p:=p*s
end;
writeln (p)
end.
```

Məsələ variantları.

Aşağıdakı kəmiyyətlərin hesablanması üçün proqramlar qurmalı:

1. $g(x,y)=\dfrac{x}{y^2+1}$.

2. $\sum\limits_{i=1}^{10}\prod\limits_{k=1}^{10}\dfrac{i^2}{k+i^2}$;

3. $\sum\limits_{k=1}^{10}\prod\limits_{m=1}^{10}\dfrac{k+m}{k+m+2}$;

4. $\prod\limits_{i=1}^{10}\sum\limits_{k=1}^{10}\dfrac{k+1}{k^2+i}$;

5. $\prod\limits_{i=1}^{10}\sum\limits_{k=1}^{10}\dfrac{i+k}{i^2+k}$;

6. $\prod\limits_{i=1}^{10}\sum\limits_{k=1}^{20}\dfrac{k+i}{k^2+i^2}$;

7. $\sum\limits_{i=1}^{10}\sum\limits_{j=1}^{15}\dfrac{i}{i^2+j^2}$;

8. $\sum\limits_{i=1}^{10}\sum\limits_{j=1}^{15}\dfrac{i^2}{j+i^2}$;

9. $\sum\limits_{i=1}^{10}\sum\limits_{j=1}^{15}\dfrac{i+j}{i+j+2}$;

10. $\sum\limits_{i=1}^{10}\sum\limits_{j=1}^{15}\dfrac{j^2}{j^2+1}$;

11. $\sum\limits_{i=1}^{10}\sum\limits_{j=1}^{20}\dfrac{j^2}{i^2+1}$;

12. $\sum\limits_{i=1}^{15}\sum\limits_{j=1}^{10}\dfrac{j+i}{j^2+1}$;

13. $\prod\limits_{i=1}^{10}\prod\limits_{j=1}^{10}\dfrac{i}{i+j}$;

14. $\prod\limits_{i=1}^{10}\prod\limits_{j=1}^{10}\dfrac{j+i}{i+j+1}$;

15. $\prod\limits_{i=1}^{10}\prod\limits_{j=1}^{10}\dfrac{j+i^2}{j^2+i+1}$;

16. $\sum_{i=1}^{10}\sum_{k=1}^{i}\frac{k}{k+i}$; **17.** $\sum_{i=1}^{10}\sum_{k=1}^{i}\frac{k^2}{k^2+i}$; **18.** $\sum_{i=1}^{10}\sum_{k=i+1}^{i+5}\frac{k}{k^2+i^2}$;

19. $\sum_{i=1}^{10}\prod_{k=1}^{i}\frac{k}{k+i}$; **20.** $\sum_{i=1}^{10}\prod_{k=1}^{i}\frac{k^2}{k^2+i}$; **21.** $\sum_{i=1}^{10}\prod_{k=i+1}^{i+5}\frac{k}{k^2+i^2}$;

22. $\prod_{i=1}^{10}\sum_{k=1}^{i}\frac{k}{k+i}$; **23.** $\prod_{i=1}^{10}\sum_{k=1}^{i}\frac{k^2}{k^2+i}$; **24.** $\prod_{i=1}^{10}\prod_{k=1}^{i}\frac{k}{k+i}$;

25. $\prod_{i=1}^{10}\prod_{k=1}^{i}\frac{k^2}{k^2+i}$.

Tapşırıq №6. Mürəkkəb dövrlər

Tapşırığın məqsədi

1. Dövr operatorlarından istifadə vərdişlərinin möhkəmləndirilməsi.
2. Simvol informasiyası ilə iş vərdişlərinin alınması.
3. Ədədlərin ixtiyari say sistemlərindən onluq say sisteminə keçirilməsi alqoritminin öyrənilməsi.

Məsələninin qoyuluşu.

Verilmiş P say sistemində ədədin yazılışını ifadə edən simvollar ardıcıllığını daxil etməli. Daxil edilən simvolların N sayı (ədədin mərtəbəsi) məsələ variantı ilə təyin edilir.Bu ədədi onluq say sisteminə keçirib, onun M ədədinin tam bölünəni (M ədədi məsələ variantında verilir) olub-olmadığını təyin etməli. Ədədi əvvəl verildiyi və onluq say sistemində çapa verməli. Əgər ədəd M ədədinin tam bölünənidirsə, ədədi çap etməli, əgər ədəd M-in tam bölünəni deyilsə, bölmə nəticəsində qalan qalıq həddini çap etməli.

Hesabat forması

1. Məsələnin qoyuluşu

2. Onluq say sisteminə keçid alqoritminin təsviri.
3. Tam ədədlərin bölünməsi nəticəsində qalan qalıq həddinin tapılması alqoritminin təsviri.
4. Proqramın mətni və onun yerinə yetirilməsi nəticələri.
5. Buraxıla biləcək səhvlərin analizi.

Məsələnin yerinə yetirilməsi üçün göstərişlər.

Tapşırığın yerinə yetirilməsi zamanı ədədin ixtiyari say sistemindən onluq say sisteminə keçirilməsi və tam ədədlərin bölünməsi zamanı qalıq həddin hesablanması alqoritmləri ilə tanış olmaq tələb olunur.

Misal üçün aşağıdakı məsələyə baxaq:
P=12 say sistemində verilmiş və N=5 simvoldan ibarət ədədi onluq say sisteminə keçirib, proqramın yerinə yetirilmə nəticələrini çapa verməli:

```
program m6;
var s: char; p,m,n: integer;
begin readln; m:=0;n:=5; p:=12;
for i:=1 to n do
begin read (s);write(s);
if(s>=’0’) and (s<=’9’) then
m:=m*p+ord(s)-ord (‘0’) else
m:=m*p+ord(s)-ord (‘a’)+10
end;
writeln; writeln (m:8)
end.
```

Tapşırıq variantları

Variantın nömrəsi	N	P	M
1	5	3	4
2	4	2	3

3	3	11	3
4	3	12	10
5	5	8	4
6	3	11	11
7	6	7	5
8	4	9	7
9	8	6	8
10	5	2	2
11	4	8	6
12	3	15	7
13	5	2	7
14	5	7	5
15	8	4	10
16	4	9	6
17	3	9	4
18	4	7	5
19	7	5	4
20	6	4	7
21	4	14	8
22	5	9	3
23	4	6	7
24	3	8	3
25	3	20	12

Tapşırıq №7. Simvollar ardıcıllığının emalı.

<u>Tapşırığın məqsədi</u>

1. Dövr operatorlarından istifadə vərdişlərinin möhkəmləndirilməsi.
2. Tam ədədlərlə iş vərdişlərinin alınması

<u>Məsələnin qoyuluşu</u>

Tapşırıq variantında verilmiş simvollar ardıcıllığının daxil edib, çap etməli və tapşırığa uyğun onları emal edib, nəticələri çapa vermək.

<u>Hesabat forması</u>.

1. Məsələnin qoyuluşu
2. Məsələnin həll alqoritmi
3. Proqramın mətni və onun yerinə yetirilmə nəticələri.

<u>Tapşırıq variantının yerinə yetirilməsi üçün göstərişlər</u>.

n natural ədədi və $a_1, a_2, ..., a_n$ həqiqi ədələri verilib. Verilmiş ardıcıllığın vahiddən böyük hər bir həddin i , onun kvadratı ilə əvəz etməli və mənfi ədədlərin cəmini tapmalı.



```
program m7;
const n=10;
var n,i: integer; s: real;
a: array [1..n] of real;
begin s:=0;
for i:=1 to n do begin read (a[i]);
if a [i]>1 then a[i]:=sqr (a[i]) else
if a [i]<0 then s:=s+a[i]
end;
writeln (s);
for i:=1 to n do
writeln (a[i])
end.
```

<u>Tapşırıq variantları.</u>

<u>Dövr və budaqlanmanın uzlaşması. Tam ədədlər</u>

1. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Bu həqiqi ədədlər daxilində ən böyüyünü tapmalı.
2. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Tək indeksli ədədlərin ən kiçiyini tapmalı.
3. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Cüt indeksli ədədlərin ən böyüyünü tapmalı.
4. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Müsbət ədədlərin cəmini və sayını tapmalı.
5. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Mənfi ədədlərin kvadratları cəmini tapmalı.
6. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. $a_1,...,a_n$ ardıcıllığında müsbət ədədləri bir vahid artırmalı, mənfi ədədləri isə 0.1 ədədi ilə əvəz etməli.
7. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. $a_1,...,a_n$ ardıcıllığında ikidən kiçik bütün ədədləri sıfırla əvəz etməli.

8. N natural ədədi və $a_1,...,a_n$ - həqiqi ədədləri verilib. Ardıcıllıqdakı mənfi ədədlərin sayını və müsbət ədədlərin hasilini tapmalı.
9. N natural ədədi və a, $x_1...,x_n$ tam ədədləri verilib. Əgər $x_1...,x_n$ ardıcıllığında a-ya bərabər heç olmasa bir element varsa, onda ardıcıllığın bu cür həddindən sonra gələn elementlərin cəmini tapmalı.
10. Tam a,n, $x_1...,x_n$ ədədləri verilib. $x_1...,x_n$ ardıcıllığında a-ya bərabər olan həddin sıra nömrəsini təyin etməli, belə bir element yoxdursa, sıfır çap olunmalı.
11. N natural ədədi və $x_1...,x_n$ tam ədədləri verilib. $x_1...,x_n$ ardıcıllığında müsbət və ya mənfi ədədlərin çoxluq təşkil etdiyini təyin etməli.
12. N natural ədədi və $x_1...,x_n$ tam ədədləri verilib. Ardıcıllığın ən böyük həddinin mütləq qiymətcə vahiddən böyük olub-olmadığını təyin etməli.
13. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. $a_1,...,a_n$ ardıcıllığında neçə cüt ədəd olduğunu təyin etməli.
14. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. Ardıcıllıqdakı tək ədədlərin cəmini tapmalı.
15. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. Ardıcıllığın cüt ədədlərinin ən böyüyünü tapmalı.
16. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. Ardıcıllıqdakı tək ədədlərin ən kiçiyini tapmalı.
17. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. Ardıcıllığın tək ədədlərindən ibarət ardıcıllıq qurmalı.
18. N natural ədədi və $a_1,...,a_n$ - tam ədədləri verilib. Ardıcıllıqda tək və ya cüt ədədlərin çox olduğunu təyin etməli.
19. N tam ədədi verilib. A və B massivləri aşağıdakı qayda üzrə qurulur. Əgər i- tək ədəddirsə a_i=i, əks halda a_i=i/2 və əgər i– tək ədəddirsə, $b_i=i^2$, əks halda $b_i=i^2+2$. Hesablamalı: $(a_1-b_1)^2+...+(a_n-b_n)^2$

20. N, a_1...,a_n - tam ədədləri verilib. B massivinin elementləri ardıcıllığın elementlərindən aşağıdakı kimi qurulur: Əgər a_i-nin 3 qiymətinə nisbəti 1 qalığını verirsə, $b_i=a_i^2$, əks halda $b_i=1/a_i^2$. Hesablamalı: alınan B massivi elementlərinin cəmini.
21. N, $a_1,...,a_n$ - tam ədədləri verilib. Bu ədədlərdən 3-ə qalıqsız bölünənlərin sayını və cəmini tapmalı.

Tapşırıq № 8. Matrislərə aid məsələlər.

Tapşırığın məqsədi

1. Matrislərə aid misallar üzərində ikiölçülü massivlərlə iş vərdişlərinin qazanılması.
2. Matrislərlə iş zamanı giriş və çıxışın təşkili.

Hesabat forması

1. Məsələnin qoyuluşu
2. Məsələninin həll alqoritmi.
3. Proqramın mətni və onun yerinə yetirilmə nəticələri.

Tapşırıq variantının yerinə yetirilməsi üçün göstərişlər.

15x15 ölçülü tam ədədlərdən ibarət kvadrat matris verilib. Matrisin sıfıra bərabər ünsürlərinin sayını tapmalı.

```
program p8;
var a: array [1..15,1..15] of integer;
i,j,s: integer;
begin s:=0;
for i:=1 to 15 do
for j:=1 to 15 do read (a[i,j]);
for i:=1 to 15 do
for j :=1 to 15 do
if a[i,j]=0 then s:=s+1;
writeln (s)
end.
```

Tapşırıq variantları

1. Bütün elementləri sıfır olmayan n x m ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Bu matrisin hər bir elementinin həmin matrisin mütləq qiymətcə ən böyük elementi ilə cəmindən düzələn yeni matris qurmalı.
2. nxn ölçülü, həqiqi ədədlərdən ibarət kvadrat matris verilib. Bu matrisin indekslərinin cəmi cüt olan elementlərini sıfırla əvəz etməli.
3. n x m ölçülü həqiqi ədədlərdən ibarət matris verilib. Bu matrisin ən böyük və ən kiçik elementlərinin hasilini tapmalı.
4. m x n ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Onun sətrlərinin ən kiçik elementlərinin hasilini tapmalı.
5. n x m ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Onun sütunlarının ən böyük elementlərinin cəmini tapmalı.
6. n x m ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Hər bir sətrin ən böyük elementləri içərisindən ən kiçiyini tapmalı.
7. n x m ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Hər bir sütunun ən kiçik elementləri içərisindən ən böyüyünü tapmalı.
8. n x n ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Baş diaqonal elementi mənfi olan sətrlərdə bütün elementlərin hasilini tapmalı.
9. n x n ölçülü, həqiqi ədədlərdən ibarət matris verilib. Baş diaqonal elementi müsbət olan sətrlərdə bütün elementlərin kvadratları cəmini tapmalı.
10. m və n natural ədədləri, 8 x 9 ölçülü ($1 \leq m < n \leq 9$) həqiqi ədədlərdən ibarət matris verilib. m-ci sətrlə, n-ci sütunun yerlərini dəyişməli.
11. nxn ölçülü, həqiqi ədədlərdən ibarət a_{ij} matris verilib. Matrisin $2 \leq i \leq 9$, $2 \leq j \leq 9$ şərtləri daxilində $a_{ij} \geq a_{i-1,j}+a_{ij-1}+a_{i+1j}+a_{ij+1}$ bərabərsizliyini ödəyən elementlərin hasilini tapmalı.
12. n x n ölçülü, kvadrat matris verilib. Hər bir sətrin elementləri cəmlərini tapıb, onlar içərisindən ən böyüyünü təyin etməli.
13. n x n ölçülü, kvadrat matris verilib. Hər bir sütunun elementləri cəmlərini tapıb, onlar içərisindən ən böyüyünü

təyin etməli.

14. n x n ölçülü, kvadrat matris verilib. Bu matrisin bütün elementlərinin kvadratları cəmini tapmalı, sonra isə matrisin hər bir elementini bu cəmin kvadrat kökünə bölməli.
15. n x n ölçülü, kvadrat matris verilib. Matrisin hər bir sətrinin elementlərinin kvadratları cəmini tapıb, alınan ədədlər içərisindən ən böyüyünü seçməli.
16. n x n ölçülü, kvadrat matris verilib. Matrisin hər bir sütunun elementlərinin kvadratları cəmini tapıb, alınan ədədlər içərisindən ən böyüyünü seçməli.
17. n x n ölçülü, kvadrat matris verilib. Hər bir sətrin elementlərinin mütləq qiymətcə cəmini tapıb, bu ədədlər içərisindən ən böyüyünü təyin etməli.
18. n x n ölçülü, kvadrat matris verilib. Hər bir sütunun elementlərinin mütləq qiymətcə cəmini tapıb, bu ədədlər içərisindən ən böyüyünü təyin etməli.
19. n x m ölçülü, matris verilib. Əgər matrisin bütün elementlərinin cəmi müsbətdirsə, onda matrisin mənfi elementlərini onların kvadratları ilə əvəz etməli, əks halda isə müsbət elementləri bir vahid artırmalı.
20. n x m ölçülü, matris verilib. Əgər matrisin bütün elementlərinin cəmi mənfidirsə, onda matrisin müsbət elementlərini onların kvadratları ilə, mənfi elementlərini isə mütləq qiymətləri ilə əvəz etməli.
21. n x n ölçülü, kvadrat matris verilib. Əgər matrisin izi, yəni baş diaqonal elementlərinin cəmi müsbətdirsə, onda matrisin bütün mənfi elementlərini sıfırla, müsbət elementlərini isə vahidlə əvəz etməli.
22. n x n ölçülü, kvadrat matris verilib. Əgər matrisin izi mənfidirsə, onda matrisin bütün müsbət elementlərini onların kvadratları ilə əvəz etməli, mənfi elementlərini isə 10 vahid artırmalı.
23. n x n ölçülü, kvadrat matris verilib. Əgər matrisin baş diaqonal elementlərinin kvadratları cəmi vahiddən kiçikdirsə, onda matrisin bütün elementlərini kvadrata yüksəltməli.
24. n x n ölçülü, kvadrat matris verilib. Əgər matrisin baş diaqo-

nal elementlərinin kvadratları cəmi vahiddən böyükdürsə, onda matrisin bütün elementlərini bu ədədə bölməli.

25. n x n ölçülü, kvadrat matris verilib. Əgər matrisin mütləq qiymətcə elementlərinin cəmi vahiddən böyükdürsə, onda matrisin hər bir elementini bu cəmə bölməli.

Tapşırıq № 9. Alt proqramların tətbiqi .

Tapşırığın məqsədi.

1. Prosedur və funksiyalardan istifadə etməklə proqramların qurulması vərdişlərinin alınması.
2. Formal və faktiki parametrlər arasında əlaqə mexanizminin öyrənilməsi.

Proqramın yerinə yetirilmə nümunəsi
F=M!-K! qiymətini hesablamalı.

```
program k1;
var f, m, k: integer;
function fact(n:integer):integer;
var p, i: integer;
begin p:=1;
for i:=2 to n do
p:=p*i;  fact:=p
end;
begin read(m,k);
f:=fact(m) - fact (k);
writeln (f)
end.
```

Məsələ variantları.

1) Həqiqi a və b ədədləri verilib. Tapmalı:
$f(a,5b,3.14)+f(2,a,a+b)$, burada
$f(x,y,z)=(3x-2y-\cos z)/(1+|z|)$.

2) Həqiqi a və b ədədləri verilib. Tapmalı:
$f(a,2b)+f(2a,b)-f(a+b,a-b)$, burada
$f(x,y)=(x^2+y^2+1)/(x^2+2xy+2y^2+4)$.
3) Həqiqi a ədədi verilib. Tapmalı:
$(3\cdot f(1/2)+2f(1+a))/(5+f(1-a^2))$, burada
$f(x)=\left(\sum\limits_{k=0}^{5}\frac{x^{2k+1}}{(2k+1)!}\right)\Bigg/\left(\sum\limits_{k=0}^{5}\frac{x^{2k}}{(2k)!}\right)$.
4) Həqiqi a,b,c ədədləri verilib. Tapmalı:

$$\frac{\max(a+b,b+c,a+c)+\max(abc,a^2b,ac^2)}{1+\max(a^2+b^2,1+c^2,1+a^2)}$$

5) Həqiqi a,b,c ədədləri verilib. Tapmalı:

$$\frac{\min(a+b+c,b+2c,a+2b)+\min(2a+b,2b+c)}{1+\min^2(ab,ac,ac)}.$$

6) Həqiqi a,b,c ədədləri verilib. Tapmalı:

$f(a+b,b+c)\cdot f(a+c,b-c)$, burada

$f(x,y)=x/(1+y^2)+y/(1+x^2)-(x-y)^2$.

7) Həqiqi a,b,c ədədləri verilib. Tapmalı:

$f(1,a,b)-f(a,b,c)\cdot f(c,1,b)$, burada

$$f(x,y,z)=\frac{\max(x,y,z)\cdot\min(x,y,z)}{\max^2(x,y,z)+\min^2(x,y,z)}.$$

8) N natural ədədi verilib. N-dən kiçik bütün ədədlər içərisində, iki ədədin kvadratları cəmi şəklində göstərilə bilənləri ayırmalı. Tam kvadratların qurulması üçün proseduru təyin etməli.
9) Həqiqi $x_1,y_1,x_2,y_2,.....,x_{10},y_{10}$. ədədləri verilib. Təpə nöqtələri $(x_1,y_1),(x_2,y_2),...,(x_{10},y_{10})$ olan onbucaqlının

perimetrini tapmalı. Koordinatları ilə verilmiş nöqtələr arasındakı məsafəni təyin etmək üçün prosedur təyin etməli.

10) $(x_1, y_1), (x_2, y_2), \ldots, (x_{10}, y_{10})$ nöqtələrinin müstəvidə koordinatları olan $x_1, y_1, x_2, y_2, \ldots, x_{10}, y_{10}$ həqiqi ədədləri verilib. Bu nöqtələr içərisində ən kiçik perimetrli üçbucağı təyin edən nöqtələrin koordinatlarını tapmalı. Üçbucağın perimetrini hesablayan proseduru qurmalı.
11) $(x_1, y_1), (x_2, y_2), \ldots, (x_{10}, y_{10})$ nöqtələrinin müstəvidə koordinatları olan $x_1, y_1, x_2, y_2, \ldots\ldots, x_{10}, y_{10}$ həqiqi ədədləri verilib. Bu nöqtələr içərisində ən böyük sahəli üçbucağı təyin edən nöqtələrin koordinatlarını tapmalı. Üçbucağın sahəsini hesablayan prosedur qurmalı.
12) N natural ədədi və $x_1, y_1, x_2, y_2, \ldots\ldots, x_n, y_n$ həqiqi ədədləri verilib. Təpə nöqtələri $(x_1, y_1), (x_2, y_2), \ldots, (x_n, y_n)$ olan n- bucaqlının sahəsini tapmalı.
13) N natural ədədi verilib. $N, N+1, \ldots, 2N$ ədədləri arasında əkiz ədədlərin, yəni aralarındakı fərq ikiyə bərabər sadə ədədlər olub-olmadığını təyin etməli. Sadə ədədləri təyin edən proseduru qurmalı.
14) Ədədin onluq say sistemindəki yazılışı olan simvollar sətri ilə verilmiş tam ədədin qiymətini hesablayan prosedur qurmalı.
15) Verilən simvol hərf olduqda doğru qiyməti, əks halda isə yalan qiyməti alan prosedur qurmalı.
16) Verilən simvol hərf olmadıqda, verilmiş uyğun hərfi alan prosedur qurmalı.
17) Verilmiş simvolun simvollar sətrində sağdan ən birinci iştirak mövqeyini təyin edən prosedur qurmalı. Əgər sətr bu simvola malik deyilsə, prosedur - 1 qiymətini verməli.
18) Verilmiş simvollar ardıcıllığında sıfırları vahidlərlə, vahidləri isə sıfırlarla əvəz edən prosedur qurmalı.
19) Verilmiş sətrdən, verilmiş ikinci sətrə də aid olan simvolları çıxaran prosedur qurmalı.

20) Verilmiş simvollar ardıcıllığında olan saitlərin sayını hesablayan prosedur qurmalı.
21) Verilmiş simvollar ardıcıllığında olan (.,:;) işarələrinin sayını hesablayan prosedur qurmalı.
22) Verilmiş simvollar ardıcıllığında olan boş yerlərin sayını hesablayan prosedur qurmalı.

Tapşırıq № 10. Fayllarla iş.

<u>Tapşırığın məqsədi.</u>

1) Fayl tiplərinin öyrənilməsi.
2) Faylların qurulması və onlardan informasiyanın emalında istifadə edilməsi vərdişlərinin alınması.

<u>Proqramın yerinə yetirilməsi nümunəsi.</u>

A1.DAT adlı faylda bir neçə sətrdə verilmiş həqiqi ədədlər ardıcıllığının cəmini tapmalı.

```
program a1;
var f1: text; x,s: real;
begin s:=0;
assign (f1, 'a1.dat');
reset (f1);
while not eof (f1) do
begin
while not eoln (f1) do
begin read (f1,x); s:=s+x
end; readln(f1)
end; write (s); close (f1)
end.
```

Məsələ variantları.

1) Elementləri həqiqi ədədlər olan fayl verilib. Fayl elementlərinin cəmini tapmalı.
2) Elementləri həqiqi ədədlər olan fayl verilib. Fayl elementlərinin hasilini tapmalı.

3) Elementləri həqiqi ədədlər olan fayl verilib. Fayl elementlərinin kvadratları cəmini tapmalı.
4) Elementləri həqiqi ədədlər olan fayl verilib. Fayl elementlərinin cəminin modulunu tapmalı.
5) Elementləri həqiqi ədədlər olan fayl verilib. Fayl elementlərinin hasilinin modulunu tapmalı.
6) Elementləri tam ədədlər olan fayl verilib. Fayl elementlərindən müsbət olanlarının sayını tapmalı.
7) Elementləri tam ədədlər olan fayl verilib. Faylın mənfi elementlərinin sayını tapmalı.
8) Elementləri tam ədədlər olan fayl verilib. Faylın sıfır elementlərinin sayını tapmalı.
9) Elementləri tam ədədlər olan fayl verilib. Faylın ən böyük elementini tapmalı.
10) Elementləri tam ədədlər olan fayl verilib. Faylın mənfi elementləri içərisində ən böyüyünü tapmalı.
11) Elementləri tam ədədlər olan fayl verilib. Faylın cüt nömrəli elementlərinin ən kiçiyini tapmalı.
12) Elementləri tam ədədlər olan fayl verilib. Faylın üçə tam bölünən nömrəli elementlərinin ən böyüyünü tapmalı.
13) Elementləri tam ədədlər olan fayl verilib. Faylın cüt nömrəli elementlərindən modulca ən böyüyünü tapmalı.
14) Elementləri tam ədədlər olan fayl verilib. Faylın ən böyük və ən kiçik elementlərinin cəmini tapmalı.
15) Elementləri tam ədədlər olan fayl verilib. Faylın birinci və sonuncu elementlərinin cəmini tapmalı.
16) Elementləri tam ədədlər olan fayl verilib. Faylın tək elementlərinin sayını tapmalı.
17) Elementləri tam ədədlər olan fayl verilib. Faylın dördə tam bölünən elementlərinin sayını tapmalı.
18) Elementləri tam ədədlər olan fayl verilib. Faylın beşə tam bölünən elementlərinin sayını tapmalı.
19) Elementləri tam ədədlər olan fayl verilib. Faylın tək elementlərinin sayını tapmalı.
20) F faylı verilib. Bu faylın təkrarını G faylında verməli.

21) F1, F2 faylları verilib. Elementlərin verilmə ardıcıllığını saxlamaqla F1 faylının elementlərini F2 faylına, F2-ni isə F1-ə köçürməli. Bu zaman köməkçi H faylından istifadə etməli.
22) Elementləri tam ədədlər olan F faylı verilib. F faylının tək elementlərini G faylında almalı.
23) Elementləri tam ədədlər olan F faylı verilib. F faylının üçə tam bölünən və beşə tam bölünməyən elementlərini G faylında almalı.
24) Elementləri tam ədədlər olan F faylı verilib. F faylının altıya tam bölünən elementlərini G faylında almalı.
25) F faylı verilib. F faylının tək nömrəli elementlərini G faylında, cüt nömrəli elementlərini isə H faylında yerləşdirməli.

Tapşırıq № 11. Müəyyən dəqiqliklə hesablamalar.

<u>Tapşırığın məqsədi</u>

1) Təkrarlanma sayları qabaqcadan məlum olmayan dövrlərin təşkili vərdişlərinin qazanılması.
2) Müəyyən dəqiqliklə hesablamaların təşkili zamanı dövrdən çıxış şərtlərinin analizi.

Nümunə misal.

$$\sum_{i=1}^{\infty} \frac{1}{(i^2 + 2i)}$$

```
program a2;
var a,s, eps:real; i:integer;
begin read (eps);
s:=0; i:=1; a:=1;
while abs(a)>=eps do
begin a:=1/(sqr(i)+2*i);
s:=s+a;  i:=i+1
end;
write (s)
end.
```

Məsələ variantları:

1. $\sum\limits_{i=1}^{\infty}\frac{1}{i^2}$
2. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{i!}$
3. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^{i+1}}{i(i+1)(i+2)}$
4. $\sum\limits_{i=1}^{\infty}\frac{1}{i(i+1)}$
5. $\sum\limits_{i=0}^{\infty}\frac{(-2)^i}{i!}$
6. $\sum\limits_{i=0}^{\infty}\frac{1}{4^i+5^{i+2}}$
7. $\sum\limits_{i=1}^{\infty}\frac{1}{i^3}$
8. $\sum\limits_{i=1}^{\infty}\frac{1}{i^4+i^2}$
9. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{i^4}$
10. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{i^3+1}$
11. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{(2i)!}$
12. $\sum\limits_{i=0}^{\infty}\frac{(-1)^i}{2^i}$
13. $\sum\limits_{i=0}^{\infty}\frac{i}{3^i}$
14. $\sum\limits_{i=1}^{\infty}\frac{i^2}{2^i}$
15. $\sum\limits_{i=1}^{\infty}\frac{i^2}{i^2+4^i}$
16. $\sum\limits_{i=1}^{\infty}\frac{i^4}{5^i+i^2}$
17. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{i^2(i^2+1)(i^2+2)}$
18. $\sum\limits_{i=1}^{\infty}\frac{1}{(2i)!}$
19. $\sum\limits_{i=1}^{\infty}\frac{(-1)^i}{i^3}$
20. $\sum\limits_{i=0}^{\infty}\frac{i+1}{i+4}$
21. $\sum\limits_{i=1}^{\infty}\frac{2^i}{4^i+1}$
22. $\sum\limits_{i=1}^{\infty}\frac{i!}{2^{i!}}$
23. $\sum\limits_{i=1}^{\infty}\frac{2^i+1}{(2^i)!}$
24. $\sum\limits_{i=1}^{\infty}\frac{i!}{(2^i)!}$
25. $\sum\limits_{i=1}^{\infty}\frac{(2i)!!}{(2^i)!}$

Tapşırıq № 12. Qrafika

<u>Tapşırığın məqsədi</u>

Qrafik operatorlarla iş vərdişlərinin alınması

Nümunə misal. Parabolanın qurulması üçün aşağıdakı proqramı verək.

```
program p1;
uses graph3;
var x,y: real; i, a, b, a1, b1: integer;
begin graphcolormode;
draw (10,100,300,100,1);
draw (170,100,170,97,1);
draw (160,10,160,190,1);
draw (160,90,163,90,1);
x:=-3; y:=sqr(x)-3;
a:= round (160+10*x);
b:= round (100-10*y);
for i:=-5 to 6 do
begin x:=0.5*i; y:=sqr(x)-3;
a1:=round (160+10*x);
b1:= round (100-10*y);
draw (a,b,a1,b1,2);
a:=a1; b:=b1
end
end.
```

Misal variantları.

